**Kəmalə Seyidova,**
*Not nəşrləri və səsyazmaları*
*şöbəsinin müdiri*

# MİLLİ MUSİQİ MƏDƏNİYYƏTİMİZİN TƏBLİĞİNDƏ AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ROLU

***Xülasə:*** *Məqalədə Not nəşrləri və səsyazmaları şöbəsinin Azərbaycan milli musiqi irsimizin araşdırılması və təbliği istiqamətində gördüyü işlərdən bəhs olunur, bu məqsədlə həyata keçirilən layihələr haqqında danışılır.*

***Abstract:*** *The article talks about the work done by the Department of Sheet Music Publications and Recordings in the direction of researching and promoting our national musical heritage, and about the projects implemented for this purpose.*

***Резюме:*** *В статье рассказывается о работе, проделанной Отделом нотных изданий и звукозаписей в сфере исследования и пропаганды азербайджанского национального музыкального наследия, и о реализованных в этих целях проектах.*

***Açar sözlər:*** *Musiqi ədəbiyyatı, not nəşrləri, not əlyazmaları, səsyazıları, bəstəkar.*

***Key words:*** *Music literature, sheet music publications, sheet music manuscripts, recordings, composer.*

***Ключевые слова:*** *Музыкальная литература, нотные издания, нотные рукописи, звукозаписи, композитор.*

Qədim tarixə, zəngin ənənələrə malik Azərbaycan musiqisinin nailiyyətlərinin çağdaş zəmanəmizdə daha da inkişaf etdirilməsi və dünya çapında təbliği, gələcəyin yüksəkixtisaslı mütəxəssislərinin hazırlanması milli mədəniyyət konsepsiyamızın strategiyasını müəyyənləşdirən başlıca istiqamətlərdir. Təsadüfi deyil ki, son illər bu sahədə irimiqyaslı layihələr həyata keçirilmiş, diqqətəlayiq işlər görülmüş və görülməkdədir. Azərbaycanda mədəniyyətimizin, milli musiqimizin inkişafına dövlət səviyyəsində yüksək qayğı göstərilir. Xalqımızın mədəni irsinin qorunmasının, dünya şöhrətli yeni mədəni irs nümunələrinin yaranmasının arxasında isə davamlı dövlət qayğısı dayanır.

Xalqımızın zəngin mədəni irsini tanıtmağa çalışan Azərbaycan Milli Kitabxanasının ölkəmizin mədəniyyətinin təbliği istiqamətində gördüyü işlər haqqında da danışmaq lazımdır.

Milli Kitabxananın Not nəşrləri və səsyazmaları şöbəsi 1961-ci ildə təşkil olunmuşdur və “Not-musiqi ədəbiyyatı kabineti” adı altında fəaliyyətə başlamış,

özünün yardımçı fondunu və Fonoteka bölməsini yaratmışdır. Hazırda şöbənin fondunda 190000-ə yaxın musiqi ədəbiyyatı, 30000 qrammofon valı, 3000 CD, 2330 dram-pyes əlyazmaları oxucuların istifadəsindədir.

Şöbədə olan musiqi ədəbiyyatının elektron kataloqa və elektron resurslara köçürülmə işi davam etdirilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə şöbə tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Azərbaycanın görkəmli bəstəkarlarından "Müslüm Maqomayev", "Cahangir Cahangirov", "Fikrət Əmirov", "Rauf Hacıyev", "Emin Sabitoğlu", "Ağabacı Rzayeva" biblioqrafiyaları, "Qara Qarayev: həyat və yaradıcılığı haqqında qısa oçerk" kitabı, Disk (CD) albomu tərtib edilmişdir.

2011-ci ildə "Azərbaycanın səs xəzinəsi: Milli Kitabxananın Not nəşrləri və Səsyazmaları şöbəsinin fondunda saxlanılan qrammafon vallarından kompakt disklərə (CD) köçürülmüş əsərlər: Kataloq"u nəşr olunmuşdur. Kataloq "Azərbaycan bəstəkarları", "Azərbaycan xalq musiqisi", "Rus bəstəkarları", "Xarici ölkə bəstəkarları", "Dünya klassik musiqi əsərləri məşhur musiqiçilərin və kollektivlərin ifasında", "Estrada, caz, pop, rok, musiqi əsərləri populyar ifaçıların və kollektivlərin ifasında" bölmələrindən ibarətdir.

"Milli musiqi xəzinəmizdən: (Azərbaycan Milli Kitabxanasının fon-dundan)" adlı layihə əsasında görkəmli bəstəkarlarımızın not məcmuələri yeni-dən çap olunmuş, böyük əksəriyyətinin təqdimatı keçirilmiş, sərgisi nümayiş edilmiş və respublikanın musiqi məktəblərinə hədiyyə kimi göndərilmişdir.

Layihə çərçivəsində çap olunmuş əsərlərə nümunə olaraq, Tofiq Quliyev, Vasif Adıgözəlov, Fikrət Əmirov, Asəf Zeynallı, Aqşin Əlizadə, Adil Bəbirovun və s. fortepiano üçün, Qara Qarayev, Elmira Nəzirova, Cövdət Hacıyevin və s. simli alətlər üçün, Süleyman Ələsgərov, Arif Məlikovun və s. nəfəsli alətlər üçün, Hafiz Kərimov, Üzeyir Hacıbəylinin və s. xalq çalğı alətləri üçün yazılmış musiqi əsərlərini söyləmək olar.

Tofiq Bakıxanovun yaradıcılığının 65 illik yubileyinə həsr olunmuş tədbir yüksək səviyyədə keçirilmiş, tədbirdə bəstəkarın 158 adda kitab və not nəşrlərinin sərgisi təşkil olunmuş, bəstəkar 51 adda əlyazmasını Azərbaycan Milli Kitabxanasına hədiyyə etmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2021-ci il "Nizami Gəncəvi ili" elan edilmişdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası adı altında Not nəşrləri və səsyazmaları şöbəsinin fondunda olan not nəşrlərindən istifadə olunmaqla Azərbaycanın görkəmli şairi Nizami Gəncəvinin 870 illik yubileyinə həsr edilmiş biblioqrafik göstərici hazırlanmış və nəşr olunmuşdur. "Sözləri Niza-

minindir" adlı tədbirdə şairin sözlərinə bəstələnmiş not nəşrlərinin sərgisi, şöbənin hazırlamış olduğu mahnılardan ibarət disk (CD), albomun təqdimatı və musiqili kompozisiya tədbir iştirakçılarına təqdim olunmuşdur.

Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Mirzə Ələkbər Sabirin 150 illik yubileyinə həsr olunmuş biblioqrafik göstərici hazırlamışdır və vəsaitin təqdimetmə mərasimində təşkil edilmiş sərgidə görkəmli şairin əsərləri ilə birgə onun sözlərinə yazılmış not nəşrləri də nümayiş etdirilmişdir.

Şöbə tərəfindən Teymur Elçinin sözlərinə yazılmış mahnıların disk (CD) albomu və not nəşrlərinin sərgisi təşkil olunmuşdur.

Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Firudin bəy Köçərlinin 150 illik yubileyinə həsr olunmuş biblioqrafik göstəricisinin, həmçinin "Abbas Səhhət" adlı vəsaitin təqdimat mərasimində Azərbaycan Milli Kitabxanasının Not nəşrləri və səsyazmaları şöbəsinin fondunda saxlanılan not nəşrlərindən istifadə olunmaqla onların sözlərinə yazılmış not nəşrləri sərgilənmişdir.

2018-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən İMSLP Petruççi Beynəlxalq Musiqi saytına kitabxananın fondunda saxlanılan (http://imslp.org) Azərbaycan bəstəkarlarının 456 not musiqi əsəri yerləşdirilmişdir.

Azərbaycan Respublikasının mədəniyyət nazirinin "Azərbaycan Respublikası bəstəkarlarının əlyazmalarının Azərbaycan Milli Kitabxanasının Not nəşrləri və səsyazmaları şöbəsinin fondunda qorunub saxlanılması haqqında" əmrinə əsasən mədəniyyət müəssisələrində saxlanılan yuxarıda qeyd edilən əlyazmaların toplanılması və qorunub saxlanılması istiqamətində şöbə tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə əldə edilən nümunələr aşağıdakılardır:

1. Azərbaycan Bəstəkarlar İttifaqından (əlyazmalarının siyahısının CD diski).
2. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı kitabxanasından 5 nüsxə (əlyazma).
3. Azərbaycan Dövlət Musiqili Teatrı tərəfindən (partitura və klavirlərin əlyazmalarının CD diskləri).
4. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyindən (əlyazmalarının DVD disk).
5. Üzeyir Hacıbəylinin ev muzeyindən (əlyazmaların siyahısı, DVD disk).

Milli və xarici not əsərlərinin elektron kataloqa köçürülməsi işi davam etdirilir.

Azərbaycan bəstəkarlarının yeni çap olunmuş not nəşrlərinin elektron bazası yaradılmışdır. Uşaq musiqi və incəsənət məktəblərinin ümumi musiqi

ədəbiyyatı fənni üçün proqram əsasında musiqi toplusu hazırlanmış, şöbənin Fonoteka bölməsinin fondunda saxlanılan qrammofon valları CD-lərə köçürülmüş, əsərlərin elektron kataloqa köçürülməsi işi davam etdirilir. Milli Kitabxananın Not nəşrləri və səsyazmaları şöbəsinin fondunda saxlanılan 30000 qrammofon val kompakt disklərə (CD) köçürülmüş, əsərlərin elektron və ənənəvi kataloqu yaradılmış, eyni zamanda kartoçkaların kitabxana profilinə uyğun işlənib ənənəvi qaydada kataloqa yerləşdirilməsi təmin edilmişdir. Qrammofon vallarında olan bəstəkar əsərləri rəqəmsallaşdırılmış, elektron katoloq bazası yaradılmışdır. Yəni ənənəvi katoloqda olduğu kimi elektron katoloqda da bəstəkarın adı, soyadı, əsərin adı, ifaçısı, hansı orkestr və ya ansambla, yazıldığı, şəhər, il və predmetlərə əsasən hansı janrlara aid olduğu (folklor musiqisi, uşaqlar üçün musiqi, xalq çalğı alətləri üçün, bəstəkar mahnıları, simfonik orkestr) və s. axtarış etmək olur.

Kitabxananın serverində fonotekanın elektron bazası üçün ayrılan sahədə 160 GB musiqi toplanıb və kataloqlaşdırılıb. Məlumat aşağıdakı bölmələrdə yerləşdirilib:

1. Azərbaycan. Müğam ensiklopediyası (9.27 GB)
2.Azərbaycan. Xənəndə və müğənniləri (7.61 GB)
3. Azərbaycan. Akademik instrumental ifaçıları (1.38 GB)
4. Azərbaycan. Akademik vokalistləri (1.48 GB)
5. Azərbaycan. Aşıq sənəti (798 MB)
6. Azərbaycan. Azərbaycan musiqi ədəbiyyatı fənni üçün - Proqramlar (musiqi məktəbləri üçün) (2.65 GB)
7. Azərbaycan. Bəstəkarları (19.7 GB)
8. Azərbaycan. Bəstəkarlarının antologiyası (2.15 GB)
9. Azərbaycan. Estrada, Pop, Caz musiqisi (2.79 GB)
10. Azərbaycan. Milli Dramatik Teatrının qızıl səhifələri (727 MB)
11. Azərbaycan. Ümumi musiqi ədəbiyyatı fənni üçün - Proqramlar (musiqi məktəbləri üçün) (1.45 GB)
12. Azərbaycan. Uşaqlar üçün mahnılar (326 MB)
13. Azərbaycan. Xalq çalğı alətlərində ifaçılar (3.36 GB)
14. Gürcüstan. Bəstəkarlar (576 MB)
15. Gürcüstan. Estrada (172 MB)
16. Rusiya. Akademik ifaçılar və kollektivlər (24.5 GB)
17. Rusiya. Bəstəkarlar (37.1 GB)
18. Rusiya. Estrada (12.5 GB)
19. Rusiya. Məcmuələr (3.15 GB)
20. Rusiya. Uşaqlar üçün (2.11 GB)
21. Qərbi Avropa ölkələri. Akademik ifaçılar və kollektivlər (302 MB)

22. Qərbi Avropa ölkələri. Bəstəkarlar (24.9 GB)
23. Qərbi Avropa ölkələri. Məcmuələr (602 MB)

Hazırda Azərbaycan və Rusiya musiqisi üzrə işlər başa çatdırılmış, Qərbi Avropa ölkələri üzrə 251 GB məlumat iş prosesindədir.

Milli Kitabxana daim öz fəaliyyətində milli musiqimizin öyrənilməsinə kömək olan vəsaitlərin hazırlanması və nəşrində, həmçinin onun təbliği istiqamətində əhəmiyyətli işlər görməkdədir.

## ƏDƏBİYYAT

**1.** İsmayılova, Ə.İ. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında müstəqillik illərində Azərbaycan musiqi ədəbiyyatının və musiqiyə aid elektron texniki vasitələrin təbliği /Ədibə İsmayılova //Kitabxanaşünaslıq və informasiya.- 2019.- №1(28).- S.201-207. URL: http://www.anl.az/down/meqale/kitabxanashunasliq-informasiya/1_2019/674034(meqale).pdf

**2.** Milli Kitabxananın Not nəşrləri və Səsyazmaları şöbəsinin vallarından kompakt disklərə (CD) köçürülmüş əsərlər /tərt. ed: M.İbrahimov; ixt. red. və burax. məsul: K.Tahirov; red. N.Şahbazova; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxana.- Bakı, 2011.- 150 s.

**3.** “Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)”. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə layihəsinin nəşrləri. URL: https://www.millikitabxana.az/ projects/milli-musiqi-xezinemizden

**4.** “Musiqi Kitabxanası” layihəsi. URL: https://www.millikitabxana.az/projects/project-music-library